# AĞDAM ƏDƏBİ MƏCLİSİ TƏQDİM EDİR



## NİZAMİ KOLANILI

### *BƏXTIN QARA GƏLDI, ŞAIR ŞÜCAƏT*

Bəxtinə gec dogan ulduzun qara,
Səndən üz döndərdi sevinc, səadət.
Nakam bir sevgiylə çəkildin dara,
Başına yaganda şan ilə şöhrət,
Bəxtin qara gəldi, şair Sücaət.

İlk görüşdə ürəyini qopardın,
Belə gözəl, söylə, hardan tapardın?
Bu sevdanı ürəyində apardın,
Olmaz vəfasızda ilqar, sədaqət,
Bəxtin qara gəldi, şair Sücaət.

Sənət yollarında bənzərdin sara,
Taleyin bəs niyə yazıldı qara?
Vəfasız sormadı, gedirsən hara,
Yaradan əcəli etdi inayət,
Bəxtin qara gəldi, şair Sücaət.

Gözəllər gözəli yarın olmadı,
Sevən qəlbin vüsal ilə dolmadı.
Ondan sənə bir yadigar qalmadı,
Bu necə yazıymış, bu necə qismət,
Bəxtin qara gəldi, şair Sücaət.

Eşq yolunda çox bəla çəkdi başın,
Həmdəm oldu həsrət ilə göz yaşın.
Çox agırmış, çəkəmmədin qəm daşın,
Qəlbdə buz bagladı, dondu məhəbbət,
Bəxtin qara gəldi, şair Sücaət.

### *ÇƏKIRSƏN BƏS NIYƏ SINAĞA MƏNI*

Bir eşq atəşində bişib, yanıram,
Agrısın, acısın şirin sanıram.
Gecə də, gündüz də səni anıram,
Çəkirsən bəs niyə sınaga məni?

Ayrılıq alovu məni yaxırsa,
Həsrət çələngini başa taxırsa,
Sənsiz keçən günlər seltək axırsa,
Çəkirsən bəs niyə sınaga məni?

Dagdan vüqarlısan, dəryadan dərin,
Sanki ag pambıqdır incə əllərin.
Aglımı alırsa ipək tellərin,
Çəkirsən bəs niyə sınaga məni?

Sonda peşmanlıgın olmaz köməyi,
Özümə borc bildim bunu deməyi.
Məndən öyrənibsə Məcnun sevməyi,
Çəkirsən bəs niyə sınaga məni?

***

Nizami vəslindən kam almaq istər,
Salma el içində qınaga məni.
Leyli vəfasını şairə göstər,
Gəl, çəkmə bir daha sınaga məni.

### *SÖYLƏ DƏRDIMI*

Səba yeli, dəysən yarın üzünə,
Ona söylə həsrət büküb qəddimi.
Toxunanda camalına, üzünə,
Yalvarıram, yara söylə dərdimi.

Dərdim göylər qədər, daglardan uca,
Görmədim üzünü, Allah, doyunca.
Kaş ki, öldürəydi, həsrət qoyunca,
Yalvarıram, yara söylə dərdimi.

Çox çəkirəm bu eşq adlı bəlanı,
Eşq oduna yanıram, yox yalanı.
Bir hicrandır, ondan mənə qalanı,
Yalvarıram, yara söylə dərdimi.

Qızıl balıq heç vaxt üzməz dərinə,
Sevən aşiq səcdə eylər pirinə.
Əhd-peymanı qoy yetirsin yerinə,
Yalvarıram, yara söylə dərdimi.

Bu ayrılıq ürəyimə dolubdur,
Göz yaşlarım abi-giryan olubdur.
Nizami də inan Məcnun olubdur,
Yalvarıram, yara söylə dərdimi.

***29.09.2021***

# *QAYIT GƏL*

*(Qarabağ savaşına öz həyat yoldaşını yola salan bir gənc qadının dilindən ürək ağrısı ilə yazılmış şeir)*

Sən gedəndən inan, bagrım qan oldu,
Ruhum sənlə, tək ayrılan can oldu.
Qalan ömrüm tez ötüşən an oldu,
Ömrüm-günüm, sag-salamat qayıt gəl.

Qəlbimdən ah-nalə göylərə qalxdı,
Tutulan gözümdən necə yaş axdı.
Gözlərim arxanca baxdıqca baxdı,
Ömrüm-günüm, sag-salamat qayıt gəl.

Yıgılıb ürəyə dünyanın qəmi,
İldırım, şimşəklər vurmayır məni.
Qorxuram əbədi itirəm səni,
Ömrüm-günüm, sag-salamat qayıt gəl.

Ürəyim həyatla heç barışmayır,
Ocagım sönübdür, heç alışmayır.
Gözlərim yollardan heç yıgışmayır,
Ömrüm-günüm, sag-sqlamat qayıt gəl

Körpən də dünyaya gəlməyib hələ,
Onunla danışıb, deyirəm belə:
'"Atan kaş, salamat qayıdıb gələ!"
Ömrüm-günüm, sag-salamat qayıt gəl

Röyada görürdüm, gülər üzünü,
Heyif, eşitmədim dogma sözünü.
Yollara dikmişən nəmli gözümü,
Ömrüm-günüm, sag-salamar qayıt gəl

Ayıldım yuxudan qarışdı halım,
Hər yanı dolaşdı, üzgün xəyalım.
Sənsiz, özün söylə, mən necə qalım?
Ömrüm-günüm, sag-salamat qayıt gəl

Vətən torpagını müqəddəs bildin,
Şəhid zirvəsinə sən də yüksəldin.
Üçrəngli bayraga bükülü gəldin,
Qayıt, məni bu yuxudan oyat, gəl.

***20.09.2021***

# *VERDIYIM ƏMANƏT, SÖYLƏ, BƏS HANI?*

Sevdalı bir ürək vermişdim sənə,
Coşub çaglayırdı sevgidən qanı.
İndisə vəfasız çıxmısan mənə,
Verdiyim əmanət, söylə, bəs hanı?

Sevgimi dəyişib dövlətə-vara,
Atmısan,özün də bilmirsən hara.
Etibar etmişdim mən bəxti qara,
Verdiyim əmanət, söylə, bəs hanı?

Bilmirəm kimlərə dikilib gözün,
İtibdir mənimlə açdıgın izin.
O əhdi, ilqarı pozmusan özün,
Verdiyim əmanət, söylə, bəs hanı?

İstədim olasan başımın tacı,
Qalasan qəlbimdə hər keçən anı.
Yaşatdın bir həsrət, acıdan acı,
Verdiyim əmanət, söylə, bəs hanı?

Bir yalançı baxışından od aldım,
Eşqə düşdüm, ayrılıqdan dad aldım.
Nizamiyəm, Məcnun kimi ad aldım,
Verdiyim əmanət, söylə, bəs hanı?

***09.11.2021***

# *QARDAŞ*

Buludlar hayqırdı, yagışlar tökdü,
Dagların başına dumanlar çökdü.
Vətənin həsrəti qəlbimə çökdü,
Ümid dönüb dagda dumana, qardaş.

Şimşəklər çaxandan ara qarışdı,
Sis-duman dolanıb dagları aşdı.
Hər evdə, komada ocaq alışdı,
Yurd-yuvam qalıbdır düşmana, qardaş.

Yagılar əlində yurdum, mahalım,
Orada dolanır şair xəyalım.
Bilmirəm ilhamı mən nədən alım
Dərdimi yazıram qanana, qardaş.

Dərd məni öldürür, kimə söyləyim,
Gəlmişəm dərdimdən cana, neyləyim?
Vətənsiz özümə qəsdmi eyləyim?
Agırdır anlayıb duyana, qardaş!

Bu qara küləklər keçmədi yandan,
İgidlər, ərənlər keçdilər candan.
Yagının gözləri doymayır qandan,
Qıydı neçə-neçə cavana, qardaş.

Ay Allah, mərhəmət istəyim kimdən,
Qurtarsın canımı bu gələn seldən.
Nizami, ürəyin kövrəkdir güldən,
Dönüb göz yaşların ümmana, qardaş.

## SƏN AĞLAYANDA

Oğlun şəhid oldu, bacım, ağladın,
Ürəyim çat verdi sən ağlayanda.
Canıma od qoydun, elə dağladın,
Huşumu itirdim sən ağlayanda.

Düşmən can alıbdır verməyib aman,
Övladın acısı yamandır, yaman.
Atadır, anadır od tutub yanan,
Mən necə şad olum sən ağlayanda.

Torpağa tapşırdın şəhid qonağı,
Ölüncə sinəndən silinməz dağı.
Ana qucağıdı vətən torpağı,
Gözlər qan-yaş tökdü sən ağlayanda.

Gəzirsən gözündən yaş süzə-süzə,
Şəhid sayı çatıb, gör neçə yüzə.
Ürək daşdan deyil bu dərdə dözə,
Bir dərdim yüz oldu sən ağlayanda.

Qurban olum gözlərinin yaşına,
Nizaminin od ələdin başına
Şəhid adı yazıldı baş daşına,
Dodaqda söz dondu sən ağlayanda.

*15.10.2021*

## MƏNİMKİ DƏ QARA GƏLDİ, BƏXTƏ BAX

Fələk bizi saldı yaman oyuna,
Həsrət qoydu bağlarımın boyuna.
Şahbulağın dərdə dərman suyuna,
Mənimki də qara gəldi, bəxtə bax.

Xəzan vurdu tez qurudu bağımız,
Susuz qaldı şamamalı tağımız.
Haradadır o firavan çağımız,
Mənimki də qara gəldi, bəxtə bax.

Sona kimi uçdum göldən-göllərə,
Köçkün oldum düşdüm eldən-ellərə.
Hey boğuldum düşüb seldən-sellərə,
Mənimki də qara gəldi, bəxtə bax.

Cavan ikən kam almadım dünyada,
Zülüm çəkdim ömür verdim mən bada.
Günüm keçdi bir sazaqlı boranda,
Mənimki də qara gəldi, bəxtə bax.

Dərdli sinəm düyünlüdü, dağlıdır,
Gedəmmirəm vətən yolu bağlıdır.
Nizamini vətən dərdi ağladır,
Onunku da qara gəldi, bəxtə bax.

*25.09.2021*

## DÖVRANA BAX, DÖVRANA

Yolda gördüm, bir xanım
İtə deyir, ay canım,
Sənsən şöhrətim, şanım.
Sanki düşdüm borana,
Dövrana bax, dövrana.

Axşam, səhər yeməyi,
Hər gün parkda gəzməyi,
Unudubdur hürməyi,
Kim nə deyir ki, ona
Dövrana bax, dövrana.

Heç boşalmır tavası,
Xanım deyir qadası,
Bəydi zalım balası,
Səsi düşüb hər yana
Dövrana bax, dövrana.

Yeyib-içir enlənir,
Hər gün çimib fenlənir.
Nazir kimi şellənir.
Qulluq eləyir cana,
Dövrana bax, dövrana.

Şöhrətə bax, şöhrətə
İtdə olan hörmətə,
İnsan düşüb zillətə,
Az qalır dünya yana,
Dövrana bax, dövrana.

Hörmət yoxdur insana,
Nifrətim var heyvana.
Üz tutdum yaradana,
Yığılmışam lap cana,
Dövrana bax, dövrana.

Nizami ömür hədər,
Budur yazılan qədər.
Hörmət yoxdur it qədər,
Dərd düzülüb yan-yana,
Dövrana bax, dövrana.

*19.09.2021*